# “Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində”

**Mayın 21-də Beynəlxalq Mətbuat Mərkəzində Mətbuat Şurasının(MŞ) təşkilatçılığı ilə “Azərbaycana baxış: şəxsi iddialar media müstəvisində” mövzusunda “dəyirmi masa” keçirildi.**




Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvləri və kütləvi informasiya vasitələrinin rəhbərlərinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan MŞ-nin sədri,





**Milli Məclisin deputatı Əflatun Amaşov bildirdi ki,** UEFA Avropa Liqasının final oyununun Bakıda keçirilməsi böyük hadisədir: “Mayın 29-da Bakıda keçiriləcək UEFA Avropa Liqası çərçivəsində “Arsenal”-“Çelsi” oyunu ilə bağlı müxtəlif beynəlxalq nəşrlər öz mülahizələrini yaymağa başlayıblar. Böyük Britaniya XİN-i bununla bağlı bəyanat yaydıqdan sonra müxtəlif nəşrlər Londonun Bakıdan uzaq olması, paytaxtımızda mehmanxanaların bahalı olması və sair xəbərlər yaymağa başladılar. Böyük Britaniya hökuməti öz vətəndaşlarına tövsiyə etdi ki, Azərbaycana gedərkən ehtiyatlı olun. Bu kimi xəbərlər əksər KİV-lərdə və erməni mətbuatında yer aldı. Bu cür yazılar Azərbaycanda keçirilən bütün beynəlxalq tədbirlər zamanı xarici KİV-lərdə yer alıb. Onlar Azərbaycanla bağlı çirkin planlarını həyata keçirməyə çalışıblar. Ölkəmizin uğurlarını götürməyən bir sıra siyasi qurumlar bu kimi qara niyyətlərini həyata keçirmək fikrinə düşürlər. Bizim bura toplaşmaqda məqsədimiz odur ki, dünya mətbuatında gedən bu tipli xəbərlərə, yazılara öz münasibətimizi bildirək. Britaniya jurnalistlərinə ünvanlanan bir bəyanat qəbul edək. Bir daha onlara xatırladaq ki, ölkədə dinindən, irqindən asılı olmayaraq, hər kəsin təhlükəsizliyi yüksək səviyyədə qorunur”.

**Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu isə qeyd etdi ki,** hazırda dünyada həm səssiz, həm hibrid, həm də informasiya müharibəsi aparılır. Hazırda bizə qarşı aparılan bu müharibə informasiya müharibəsidir. Mən bu xəbər yayılandan dərhal sonra London və Bakıda baş verən kriminal hadisələrin müqayisəsini apardım. Məlum oldu ki, Londonda baş verən kriminal hadisələrin sayı Bakıda baş verən kriminal hadisələrdən dəfələrlə çoxdur. Mən düşünmürəm ki, Böyük Britaniya XİN bu reallıqlardan xəbərsizdir. Bakıda 12 min Britaniya vətəndaşı yaşayır, BP kimi böyük şirkət fəaliyyət göstərir. Onlara qarşı heç bir kriminal hadisə baş verməyib. Bizim qəbul edəcəyimiz bəyanatda bu məqamlar da əksini tapmalıdır. Daim bildiririk ki, bəzi musiqi və idman tədbirləri siyasiləşdirilməməlidir. London özü Bakı ilə müqayisədə qat-qat artıq kriminal şəhərdir. Əvvəlcədən planlaşdırılmış hər hansı bir təxribatın məsuliyyəti “Arsenal” və “Çelsi”nin azerkeşləri və akkreditasiyadan keçən şəxslərin üzərinə düşməlidir.”

**“Dəyirmi masa”da çıxış edən “Teleqraf Holdinq”in rəhbəri Aynur Camalqızı vurğuladı ki,** Azərbaycan bu gün Cənubi Qafqazda ən sabit ölkədir: “Son 25 ildə Azərbaycanda hər hansı terror aktı baş verməyib. Amma bir çox Avropa ölkələrinin paytaxtlarında, o cümlədən Londonda dəfələrlə terror aktı törədilib. Bu baxımdan Britaniya XİN-in bəyanatı anlaşılan deyil, qərəzlidir. Çox təəssüf ki, Azərbaycan hər dəfə beynəlxalq tədbirlər ərəfəsində bu cür hadisələrlə üzləşir. Bakıda heç bir mafioz qrup üzvü, bir kriminal avtoritet belə yaşamır. Amma dünyanın ən inkişaf etmiş ölkələrinin paytaxtlarında, böyük şəhərlərində mafioz və kriminal qruplar var. Sözügedən bəyanatda küçələrin işıqlandırılmasının həyata keçirilmədiyi qeyd olunub ki, bu da absurddur. Azərbaycan multikulturalizm, tolerantlıq mərkəzidir. Bu qərəzli münasibətə ən böyük cavab odur ki, Azərbaycanda BP kimi nəhəng Britaniya şirkəti çox rahatca neft çıxara bilir və onun, eləcə də digər Britaniya şirkətlərinin əməkdaşlarının həyatına heç bir təhlükə yoxdur. Bu baxımdan mən hesab edirəm ki, belə bir bəyanatın hazırlanması çox yerində atılan addımdır və lazımlıdır”.

**“525-ci qəzet”in baş redaktoru Rəşad Məcid təklif etdi ki,** Azərbaycanda fəaliyyət göstərən Böyük Britaniya diplomatlarına, əməkdaşlarına müraciət edilsin: “Bakıdakı barlarda gecələr ən çox olanlar da məhz ingilislərdir. Desinlər görək, onlara qarşı hər hansı təhlükə olubmu?! Digər tərəfdən, bu bəyanat özünü sığortalamaq üçün lazımdır. Çünki özləri də bilirlər ki, ingilislər necə çılğın azarkeşlərdir. Azərbaycan vətəndaşları təmkinli olmalıdırlar”.

**YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə tədbirdə çıxış edərək bildirdi ki,** İngiltərə mediasında yaranan bu ajiotaj qərəzli xarakter daşıyır: “Bu gün həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu, siyasi çəkisi durmadan artır. Azərbaycanın bu uğurlarını gözü götürməyən bəzi daxili və xarici düşmənlər isə hər fürsətdə öz çirkin niyyətlərini reallaşdırmağa çalışırlar. Ölkəmiz bir çox beynəlxalq idman tədbirlərinə uğurla ev sahibliyi edir. Belə mötəbər tədbirlər Azərbaycanın dünyada tanıdılması və təbliği baxımından böyük əhəmiyyət daşıyır. Bu cür qərəzli yanaşmalar ölkəmizin bütün sahələrdə inkişafını gözü götürməyən qüvvələrin işidir. Burada məqsəd isə Azərbaycan dövlətinin qazandığı uğurlara kölgə salmaq, beynəlxalq arenada ölkəmizin nüfuzuna xələl gətirməkdir. Təxribat, qərəz və məkr dolu bu kampaniya da digərləri kimi haqsız və ədalətsiz olduğu üçün iflasa məhkumdur. Ona görə də hər bir azərbaycanlı qətiyyətlə mövqe nümayiş etdirməklə buna etirazını bildirməlidir.”

***Daha sonra “dəyirmi masa” da Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, siyasi şərhçi Azər Həsrət, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli çıxış edərək müzakirə olunan mövzu ilə bağlı öz fikirlərini açıqladılar, müxtəlif təkliflər irəli sürdülər.***

**✍ Yaqut Ağaşahqızı,**
**Vüsal Cahanov (foto)**
***“İki sahil”***